Yeni nəşrlər

Nuh yurduna ziyarət

Kitabda muxtar respublikadakı tarixi və arxeoloji abidələrlə yanaşı ziyarətgahlar, insanların inanc yerləri olan pirlər barədə məlumat verilir



Feyruz Bağırov Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Elmi-Metodik Mərkəzində çalışır. Onun muxtar respublikanın ərazilərində olan bir sıra tarixi abidələrlə bağlı axtarışları, tariximizə əsl vətəndaş mövqeyindən yanaşması diqqəti çəkir. Xüsusilə də onun müqəddəslik simvolu olan ziyarətgahların qorunub saxlanması və təbliğ olunması ilə bağlı dövri mətbuatda araşdırmaları bu cəhətdən səciyyəvidir. Qeyd edək ki, F.Bağırov bu axtarışlarının bəhrəsi olan "Ziyarətnamə" adlı kitabla bir neçə il əvvəl oxucuların görüşünə gəlib. Müəllifin bu günlərdə "Nuh yurduna ziyarət" adlı daha bir kitabı da işıq üzü görüb. Kitabda muxtar respublikadakı tarixi və arxeoloji abidələrlə yanaşı ziyarətgahlar, insanların inanc yerləri olan pirlər barədə məlumat verilir.

Kitaba ön söz yazan Naxçıvan Muxtar Respublikası Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri Qadir Həsənov müəllifin bu istiqamətdəki yaradıcı axtarışlarını yüksək qiymətləndirərək qeyd edir ki, Feyruz Bağırov xalqın mənəvi zənginliklərini öyrənmiş, çalışmışdır ki, kitabda bir-birindən maraqlı məqalələrlə oxucuların qəlbinə yol taparaq onları düşündürə bilsin. Buna görə də müəllif heç bir çətinlikdən qorxmayaraq uzun illər davam etdirdiyi xeyirxah işində muxtar respublikanın bütün rayon və kəndlərini addım-addım gəzmiş, maraqlı və zəngin faktlar əldə etmişdir.

Müəllif ilk səhifələrdə muxtar respublikanın coğrafi yeri, ərazisi, tarixində ən önəmli hadisələrdən danışır, son illər tarixi abidələrə göstərilən qayğının bəhrələrindən bəhs edir. Kitabda ilk olaraq Nuh peyğəmbərin türbəsi haqqında məlumat verilir. Qeyd olunur ki, xalq arasında bura müqəddəs yer kimi imamzadə də deyirlər. Həmin tikili-türbə soğana bənzər formalı günbəz hissədən və iki əsas binadan ibarətdir. Türbənin dəqiq tikilmə tarixi öyrənilməmişdir. Lakin türbə ilə yanaşı tikilmiş imamzadə binası XVIII əsrin 20-ci illərinə aid olunur. Buna əsas isə 1920-ci illərdə Naxçıvanda olmuş epiqrafçı alim İ.Əzimbəyovun yazdığı və hazırda yerində olmayan daş kitabənin mətnidir. XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası N.V.Xanıkov imamzadə türbəsinin Səfəvilər dövrünün şahı II Təhmasibin zamanında tikilməsini gü-


Qurunbağlar türbəsi

man etmişdir. Maraqlı bir fakt burada oxucunun diqqətini çəkir. 1960-ci ildə İ.Səfərli küçəsində məktəb binası tikilərkən təpədəki torpaq altından içərisində qadın uzanmış daş məzar aşkar olunmuşdur. Qiymətli tapıntı Leninqrada aparılmış və bu barədə mətbuatda "Yatmış gözəlin sirri" sərlövhəli elmi məqalə yazılmışdır. Mütəxəssislər daş məzardakı qadının Nuh peyğəmbərin həyat yoldaşı olduğunu ehtimal etmişlər.

Qeyd edək ki, kitabda muxtar respublikamızın Naxçıvan şəhəri ilə yanaşı, bütün rayonlarındakı ziyarətgahlar haqqında məlumat verilir. Maraqlı cəhət orasındadır ki, axtarışların bəhrəsi olan və geniş xalq kütləsinə bəlli olmayan ən kiçik inanc yerləri belə araşdırılaraq oxuculara təqdim edilir. Muxtar respublikada son illərdə salınmış Şəhidlər xiyabanı, Xatirə muzeyi və digər obyektlər haqqında məlumatlar verilməsi kitabı daha da oxunaqlı edib. Daha bir cəhəti də qeyd edək ki, plan, xəritə və fotoşəkillərin kitabda özünə


Gülüstan türbəsi

yer alması bu dəyərli mənbənin əhəmiyyətini bir qədər də artırıb.

"Nuh yurduna ziyarət"in geniş oxucu kütləsinin stolüstü kitabına çevriləcəyinə inanırıq.

S.ƏZİMOVA

Xəbər

Sərgi təşkil olunub

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar imzalamışdır. Həmin sərəncamlara uyğun olaraq mədəniyyət müəssisələrinə hədiyyə edilən kitablar gənc nəslin bədii ədəbiyyata olan marağını artırmaqla yanaşı, eyni zamanda oxucu-kitabxana əlaqələrinin gücləndirilməsinə də şərait yaratmışdır.

Bu gün istənilən belə mədəniyyət müəssisəsinə üz tutsaq latın qrafikası ilə nəşr edilmiş klassik Azərbaycan ədəbiyyatı nümunələrindən tutmuş müasir dövrümüzədək olan ədəbiyyatlara rast gəlmək olar. Belə mədəniyyət müəssisələrindən biri də Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemidir.

Kitabxananın direktoru Bayram Səlimlinin müxbirimizə verdiyi məlumata görə, bu günlərdə kitabxanada "Yeni kitablar" başlığı altında sərgi təşkil olunmuşdur.

Məktəblilərin yay tətili günlərində onların asudə vaxtlarının səmərəli təşkil olunması və dünyagörüşlərinin zənginləşməsinə xidmət edən bu sərgidə uşaqlar "Azərbaycan və rusca lüğət", "Azərbaycan dilinin izahlı lüğəti", Azərbaycan klassik, türk və dünya ədəbiyyatı ilə bağlı yeni kitablarla tanış ola bilərlər.

S.İSMAYILOV

Naxçıvan Muxtar Respubli-